# Qəhrəmanlığı ilə vətən olan oğul...

***27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda Biləsuvar rayonunun Bəydilli kəndində boya-başa çatan Hikmət Qəhrəman oğlu Bağırlı Vətənin harayına birinci gedənlərin sırasında olub. Yurdumuzun müdafiəsinə qalxanda o, 19 yaşında idi. Qaldı ki, doğma Azərbaycanı özündən çox sevdiyinə görə onun yolunda şəhid olmağı özünə şərəf sayıb. Son damla qanına qədər yağıya qarşı əsl qəhrəman kimi döyüşüb. Bu Vətən sevdalısı gələcək nəsillər üçün örnək olacaq bir hünər göstərərək əbədiyyət dünyasına qovuşub.***



30 il düşmən tapdağında qalan Qarabağımızın azadlığı naminə şərəfi döyüş yolu keçən, şəhidlik zirvəsinə ucalmaqla ürəklərdə özünə əzəmətli abidə ucaldan Hikmət Bağırlı orta məktəbi yaxşı qiymətlərlə başa vurub. El-obada bu ağıllı, vətənpərvər, işgüzar oğlana böyük hörmət olub. Doğma Azərbaycanın hər guşəsini özünə əziz bilən Hikmət Qarabağı işğal edən erməni dığalardan qisas almaq məqsədilə ordu sıralarına yollanıb. Cəbhə bölgəsində kəşfiyyatçı kimi xidmətə başlayıb. Çox cəsur, qorxmaz bir gənc olmaqla hamı tərəfindən sevilib. Vətən qarşısında borcunu şərəflə yerinə yetirib. Bir qayda olaraq yurdumuzun ərazilərinin işğaldan azad olunacağı günü intizarla gözləyib. Döyüş meydanında getdikcə güclənən ordumuzun erməni qəsbkarlarına qalib gələcəyinə tam inanan Hikmət hərbi biliklərə mükəmməl yiyələnib. Təlimlərə həvəslə qoşulub, üzərinə düşən bütün tapşırıqları peşəkarlıqla görüb.

27 sentyabr 2020-ci ildə əsgər Hikmət Bağırlının gözlədiyi gün gəlib. Erməni işğalına son qoyulması üçün Vətən təəssübünü çəkən mərd oğullarla bir cərgədə silaha sarılaraq savaş meydanına girib. Elə ilk çətin əks-hücum əməliyyatlarında düşmənə sarsıdıcı zərbə vurmaqla onun kabusuna çevrilib. Heç bir hücum zamanı dığalar igid əsgərin qarşısında dayana bilməyib, böyük itki verməklə geri çəkilib. Hər dəfə azad olunan torpaqlarda üçrəngli qələbə bayrağımız dalğalananda Hikmət yağıya qarşı daha qəddarlıqla davranıb. Ən böyük arzusu da hər qarşı torpaq uğrunda döyüşüb ailəsinə qalib ordunun əsgəri kimi üzüağ dönməsi olub.

Hikmət Füzuli istiqamətində gedən döyüşlərdə yağının başına od ələməklə tarix yazıb. Odun-alovun içində göstərdiyi fədakarlığı, hünəri heyrət doğurdub. Düşmənin çoxlu sayda canlı qüvvəsini, döyüş texnikasını məhv etməklə özü də şəhidlik zirvəsinə ucalıb. Nəsibi şərəfli ölüm olan Biləsuvar elinin qəhrəman oğlunun müharibə meydanında göstərdiyi şücaəti dövlət tərəfindən "Vətən uğrunda", "Cəsur döyüşçü", Füzulinin və Cəbrayılın azadlığına görə medallarına layiq görülüb.

Hikmət Bağırlı Vətən, torpaq uğrunda şirin canını fəda edib. Buna görə də ürəklərdə yaşamaqla heç vaxt unudulmaz.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***